# "Nizami əlyazmaları dünya kitabxanalarında" mövzulu videokonfrans olub



Azərbaycan Milli Kitabxanası "Nizami Gəncəvinin əlyazmaları dünya kitabxanalarında" mövzusunda videokonfrans keçirib. Direktor Kərim Tahirov Prezident İlham Əliyevin Sərəncamı ilə 2021-ci ilin Azərbaycan Respublikasında "Nizami ili" elan edilməsinin böyük əhəmiyyət daşıdığını konfrans iştirakçılarının nəzərinə çatdırıb. O, Prezidentin Sərəncamına əsasən, mart ayının əvvəlində Türkiyənin Ankara və İstanbul şəhərlərində geniş kitab sərgisinin təşkil olunduğunu vurğulayıb. Bildirilib ki, bu ilin Nizami haqqında yeni fundamental biblioqrafiya da çap olunacaq.

Sonra K.Tahirov deyib ki, Mədəniyyət Nazirliyi və Milli Kitabxana milli mənəvi dəyərlərimizin hamisi və təəssübkeşi olan Heydər Əliyev Fondunun və onun vitse-prezidenti Leyla Əliyevanın dəstəyi ilə, artıq iki ildir, "Milli mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində dünyanın milli kitabxanalarında və muzeylərində mühafizə edilən Azərbaycan ədəbiyyatı klassiklərinə mənsub qiymətli əlyazmaların müəyyən olunaraq, onların elektron və kağız nüsxələrinin Milli Kitabxanaya gətirilməsi layihəsini həyata keçirir. Son iki ildə bu layihə çərçivəsində 58 əlyazmanın surətinin Milli Kitabxanaya gətirilməsi təmin olunub ki, bunların içərisində dahi Nizaminin də əlyazmaları yer alıb və Milli Kitabxana bu işi "Nizami Gəncəvi ili" çərçivəsində də davam etdirməkdədir. Artıq Çexiya, Rumıniya, Misir, Rusiya, Türkiyə, Bosniya və Herseqovina, İran və digər ölkələrin milli kitabxanaları ilə danışıqlar gedir və bu kitabxanalarda olan əlyazmaların digital nüsxələrinin Azərbaycana gətirilməsi istiqamətində addımlar atılır.

Daha sonra Türkiyənin Kastamonu Universitetinin professoru Vüsalə Musalı çıxış edərək, Milli Kitabxananın fəaliyyətindən, ziyalılara, alimlərə göstərdiyi xidmətdən danışıb. O öz axtarışları nəticəsində əldə etdiyi, dünyanın müxtəlif kitabxanalarında saxlanılan əlyazmalar barədə məlumatları Milli Kitabxana ilə bölüşüb. Vüsalə Musalı Nizami əlyazmalarının Mançester nüsxəsini də Milli Kitabxanaya elektron versiyada göndərəcəyini bildirib. Alim bir sıra dünya kitabxanalarından əldə etdiyi Azərbaycan ədəbiyyatının klassiklərinə və eləcə də Nizami Gəncəviyə dair əlyazmaların videogörüntülərini nümayiş etdirib.

Videokonfransın davamında Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin dekan vəzifəsini icra edən dosent Ələmdar Cabbarlı çıxış edərək Nizami Gəncəvinin yaradıcılığından, onun Azərbaycan ədəbiyyatında tutduğu mövqedən danışaraq, bu ilin dahi Azərbaycan şairinə həsr olunmasının əhəmiyyətini vurğulayıb. O, Nizamiyə dair həm fundamental biblioqrafiyanın tərtibi, həm də onun dünya kitabxanalarında saxlanılan əlyazmalarının ölkəmizə gətirilməsi layihələrinin ədəbiyyatımıza və mədəniyyətimizə təqdirəlayiq xidmət olduğunu qeyd edib.

Tədbirin sonunda professor Kərim Tahirov çıxış edərək Nizami əlyazmalarının əldə olunmasına göstərdiyi təmənnasız köməyinə görə Milli Kitabxananın kollektivi və oxucuları adından V.Musalıya dərin təşəkkürünü bildirib və xaricdə yaşayan həmvətənlərimiz olan ziyalıları bu xeyirxah işə qoşulmağa çağırıb.